# NƏSİBOV MƏRFƏT ƏHMƏD OĞLU



Mərfət Nəsibov 22 may 1972-ci ildə Qazax rayonunun Məzəm kəndində dünyaya göz açıb. O, 1979-cu ildə burada məktəbə gedib, 1989-cu ildə isə Aşağı Əskipara kənd orta məktəbini bitirib. 1990-cı ildə Qazax rayon Hərbi Komissarlığının göndərişi ilə sürücülük peşəsinə yiyələnib. Elə həmin il hərbi xidmətə çağrılıb. Sovet Ordusu sıralarınada bir il xidmət etdikdən sonra Vətənə qayıtmış və könüllü olaraq Milli Orduya yazılıb. Nəsibov Mərfət Əhməd oğlu ilk gündən torpaqlarımızın müdafiəsində fəal iştirak edərək, şəxsi igidlik və fədakarlıq nümunəsi göstərib. Qazax rayonunun Ermənistanla sərhəd kəndlərini cəsur bir əsgər kimi qoruyurdu. 1992-ci il yanvar ayının 28-də Nəsibov Mərfət Qazax rayonunun Quşçu Ayrım kəndində gedən mövqe döyüşləri zamanı qəhrəmancasına həlak olmuşdur. Qazax rayonunun Məzəm kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Resbublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Nəsibov Mərfət Əhməd oğluna ölümündən sonra “Azərbacanın Milli Qəhrəmanı” adı verilmişdir. Qazax rayonundakı H.Əliyev adına parkda adına bulaq tikilmişdir.